2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 yanvar 2024-ci il tarixli 1 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri                                                                 20 yanvar 2024-cü il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin 19 yanvar 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 saylı müraciətini nəzərdən keçirərək müəyyən etdim:

Namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Mütəllimli müraciətində namizədliyinin müdafiəsi üçün imza toplanması zamanı tərəfdarları olan şəxslərin müqavimətlə üzləşdiklərini, Sumqayıtda və Gəncədə isə müxtəlif şəxslər tərəfindən imza vərəqələrinin götürüldüyünü və digər qanun pozuntularının baş verdiyini iddia etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq tərəfimdən nəzərdən keçirilmiş, müraciətdə Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş əməllərin əlamətlərinin olması ehtimal edildiyindən müraciətin aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsinə dair rəy verilməsi qənaətinə gəlinmişdir.

Belə ki, Seçki Məcəlləsinin 112-1.5.5-ci maddəsinin tələbinə görə ekspert qrupunun üzvü müraciətdə göstərilən qanun pozuntularında Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş əməllərin əlamətlərinin olduğu qənaətinə gəldikdə, həmin əməllər barədə müvafiq prokurorluq orqanına məlumat verilməsinə dair qərar qəbul edilməsi üçün rəy verməlidir.

Həmçinin Seçki Məcəlləsinin 112-1.6-cı maddəsində göstərilir ki, ekspert qrupunun üzvü bu Məcəllənin 112-1.5-ci maddəsində göstərilənlərlə yanaşı, seçki komissiyalarının hərəkətləri (hərəkətsizlikləri) və qərarları ilə əlaqədar olmayan seçkilərlə bağlı digər orqanların və ya vəzifəli şəxslərin qeyri-qanuni hərəkətlərinə aid şikayətlərlə əlaqədar bu Məcəllənin 60.6-cı, 68.5-ci, 87.9-cu, 88.7-ci, 88.8-ci, 113-cü, 115-ci və 116-cı maddələrinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən müvafiq qərar qəbul edilməsi üçün rəy verməlidir.

Göstərilənlərə əsasən namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş M.Ə. Mütəllimlinin müraciəti aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməlidir.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7-ci hissəsinə əsasən **r ə y ə  g ə l d i m:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 yanvar 2024-cü il tarixli 1 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov